**Bu gün dünya azərbaycanlılarının bir amal uğrunda birləşməsi, istər siyasi meydanlarda, istərsə də mədəni platformalarda vahid səs kimi çıxış etməsi uzaqgörən bir liderin müdrik ideyasının təntənəsidir. Ulu öndər Heydər Əliyevin böyük uzaqgörənliyi və sarsılmaz iradəsi sayəsində azərbaycançılıq məfkurəsi dünya azərbaycanlılarının qəlbində yenidən doğuldu. Onun azərbaycanlıların birliyi və həmrəyliyi ideologiyası həm sovet dövründə, həm də müstəqillik illərində ardıcıl şəkildə həyata keçirildi. Bu, sadəcə bir ideya deyildi - bu, böyük bir xalqın parlaq gələcəyinin siyasi, sosial, iqtisadi, mədəni təməli idi.**




# Dilimiz, kimliyimiz, milli birliyimiz:

## dünya azərbaycanlılarının həmrəylik erası

1998-ci il tarixi bir başlanğıc nöqtəsi oldu. Həmin il ümummilli lider dünya azərbaycanlılarının bir araya gəlməsi üçün Qurultay keçirilməsi təklifi ilə çıxış etdi. Bu, millətin yaddaşına, ruhuna, kimliyinə və birliyinə çağırış idi. Üç il ərzində bu ideyanın həyata keçirilməsi üçün böyük hazırlıq aparıldı. Vətənə könül verən insanların əməyi, zəhməti, milli sevgi ilə yoğrulmuş fədakarlığı təşəbbüsün reallığa çevrilməsinə yol açdı. O dövrdə bu müqəddəs yolda maneələr də çox oldu. Dünyanın müxtəlif yerlərində yaşayan azərbaycanlıların birləşməsini istəməyən, bu həmrəyliyin gücündən ehtiyat edən qüvvələr vardı. Amma qarşıya çıxan hər çətinlik daha bir azərbaycanlını bu amal uğrunda irəli addım atmağa sövq etdi. Ulu öndər Heydər Əliyev böyük siyasi iradəsi və xalqına sonsuz sevgisi ilə bu mübarizənin öncülü oldu. Onun liderliyi ilə bu ideya qlobal azərbaycançılıq hərəkatının başlanğıcına çevrildi.

Ulu öndərin böyüklüyü ondadır ki, o, sadəcə dünya azərbaycanlılarını bir yerə toplamaqla kifayətlənmədi, birliyin ideoloji, mədəni və siyasi bünövrəsini yaratdı. Bu, dünya miqyasında Azərbaycançılığın bir modelə çevrilməsi demək idi. Ümummilli lider dünya azərbaycanlılarının birliyini dövlət siyasəti səviyyəsinə yüksəltdi. Beləliklə, hər bir soydaşımız harada yaşamasından asılı olmayaraq artıq Azərbaycan dövləti tərəfindən tanınan, dəstəklənən və istiqamətləndirilən milli hərəkatın bir parçasına çevrildi. Bu gün bu siyasət uğurla davam etdirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan diasporu daha da güclənir, sıx koordinasiya olunur, qlobal sferaya çıxış imakanları genişlənir.

Əsrlərlə dünyanın dörd bir yanına səpələnmiş soydaşlarımız 2016-cı ilin iyununda Bakıda ana Vətənlə könül və ruh bağını təzələmək üçün bir araya gəldilər. Bu görüş tarixə həkk olunan birlik və həmrəylik zirvəsi - Dünya Azərbaycanlılarının IV Qurultayı idi. İki gün davam edən Qurultay çərçivəsində müxtəlif qitələrdə yaşayan soydaşlarımız Azərbaycanın gələcəyi, milli kimliyimizin qorunması və beynəlxalq aləmdə layiqli təmsilçiliyimiz uğrunda aparılan geniş fikir mübadiləsində iştirak etdilər. Qurultay, həm də ideyaların, gələcəyə dair strategiyaların təməlini qoydu. Tədbir çərçivəsində səslənən fikirlər Azərbaycan diasporunun artıq təkcə varlıq mübarizəsi aparan, özünü beynəlxalq müstəvidə ifadə edə bilən güclü siyasi və ictimai qüvvə kimi formalaşdığını göstərdi.

Qurultayın açılışında Prezident İlham Əliyevin səsləndirdiyi nitq isə bu böyük milli hərəkatın ruhuna çevrildi. Bu çıxış yalnız diaspor üzvləri üçün istiqamətverici mesajlar toplusu olmaqla kifayətlənmədi. Azərbaycançılıq ideologiyasının, milli həmrəyliyin və vahid mövqenin möhkəmləndirilməsi üçün səfərbərlik çağırışı idi. Prezidentin nitqi diasporun gələcək fəaliyyət xəritəsini cızdı, milli yaddaşın və maraqların qorunması naminə hər bir azərbaycanlının məsuliyyətini bir daha xatırlatdı: "İlk növbədə əlbəttə, biz istəyirik ki, dünyada yaşayan azərbaycanlılar öz tarixi Vətənləri ilə əlaqələri heç vaxt kəsməsinlər. Daim əlaqədə olsunlar, Azərbaycan ilə bağlı olsunlar. Beləliklə, onlar özlərini daha da rahat hiss edəcəklər. Belə olan halda Azərbaycan dövləti onlara daha da böyük dəstək verə biləcək".

Görüş çərçivəsində keçirilən panel iclaslar müxtəlif aspektləri ilə diqqət çəkdi. "Müasir dövrdə informasiya müharibəsi - müdafiədən hücuma: şərtlər, siyasi reallıqlar və yeni fəaliyyət mexanizmləri" mövzusunda müzakirələr göstərdi ki, informasiya məkanında mövcud olmaq, reallıqları dünyaya çatdırmaq artıq strateji məsələdir. Azərbaycan diasporu təkcə informasiya hücumlarından müdafiə olunmaqla kifayətlənmir, artıq beynəlxalq platformalarda hücum diplomatiyası aparmaq gücünə sahibdir. Bununla yanaşı, "Keçmişin təcrübəsi və müasir düşüncə - Azərbaycan diaspor hərəkatında gənclər: yeni baxış və yeni strategiya" , "Lobbi quruculuğu: dəyişən geosiyasi reallıqlar və yeni qlobal iqtisadi tendensiyalar kontekstində", "Cəmiyyətə inteqrasiya və siyasi həyatda iştirak" kimi panellər diaspora fəaliyyəti ilə bağlı aydın gələcəyi formalaşdırdı.

Qurultayın nəticələri onu göstərdi ki, dünya azərbaycanlıları artıq ortaq məqsəd uğrunda koordinasiyalı fəaliyyət göstərməyə qadirdirlər. Bu həmrəyliyin əsasını isə uğurlu və ardıcıl diaspora siyasəti təşkil edir. Dövlətimiz diaspor quruculuğuna sistemli yanaşır, onun fəaliyyətini dəstəkləyir və istiqamətləndirir. Diaspora təşkilatlarının koordinasiyası, onların birgə fəaliyyət platformasının formalaşdırılması və bu fəaliyyətin dövlət səviyyəsində təşviqi son illərdə əldə edilən ən mühüm nailiyyətlərdəndir.

Sonda qurultayın iştirakçıları bir ağızdan ifadə etdilər ki, harada yaşamalarından asılı olmayaraq Azərbaycan onların qəlbindədir və bu sevgi onların fəaliyyətlərinin əsas motivasiyasıdır. Onlar Azərbaycanın haqq səsinin dünyada daha geniş yayılması, tarixi gerçəkliklərin və müasir inkişafın beynəlxalq ictimaiyyətə çatdırılması üçün bundan sonra da yorulmadan çalışacaqlar. Dünya Azərbaycanlılarının IV Qurultayı bir daha sübut etdi ki, parçalanmayan ruhun, bölünməyən yaddaşın və sarsılmaz milli iradənin adı Azərbaycançılıqdır. Bu ideologiya ətrafında birləşən diaspora artıq bir gücdür - həm də vətənə xidmət edəcək, gələcəyə işıq salacaq.

Mövcud zaman kəsiyində isə dünya azərbaycanlıları qalib Azərbaycanın ətrafında sıx birləşmişdir. 44 günlük Vətən müharibəsindən sonra yaranan yeni reallıqlara əsasən ərazi bütövlüyümüz və suverenliyimizin tam bərpası hər bir soydaşımızın qürur mənbəyinə çevrilmişdir. Məhz soydaşlarımızın qalib Azərbaycan ətrafında sıx birləşməsinin təntənəsi olaraq 2022-ci il 22 aprel tarixində Şuşa şəhərində "Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər Qurultayı" keçirildi. Şuşada keçirilən Qurultayda postmüharibə dövründə diaspor fəaliyyətinin təşkili əsas mövzulardan biri kimi diqqət mərkəzində idi. Yeni nəsillərin milli ruhda yetişdirilməsi, vətənpərvərlik hisslərinin ailədən başlayaraq cəmiyyətə yayılması diasporun ideoloji bazasını gücləndirən mühüm faktorlardır. Bu çərçivədə şəbəkələşmə, müasir kommunikasiya texnologiyaları vasitəsilə əlaqələrin dərinləşdirilməsi, kreativ kampaniyaların təşkili xüsusi əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin ana dili ilə bağlı verdiyi tövsiyələr isə müasir dövrün Azərbaycançılıq fəlsəfəsinin əsas sütununu təşkil edir. Dövlət başçısının vurğuladığı kimi, ikinci və üçüncü nəsil soydaşlarımız, harada yaşamasından asılı olmayaraq, mədəni köklərə bağlı qalmalıdırlar. Bunun üçün isə ana dilinin qorunması əsas şərtdir. Təkcə ailə içində dil yaşatmaqla kifayətlənmək olmaz - bu, mütəşəkkil bir prosesə çevrilməlidir. Bu məqsədlə bazar günü məktəblərinin, Azərbaycan dili və mədəniyyəti mərkəzlərinin yaradılması diaspor fəaliyyətinin prioritet istiqamətlərindən biri olmalıdır.

Dünya azərbaycanlılarının həmrəy olması, bu çərçivədə ardıcıl və məqsədyönlü addımların atılması Azərbaycan diasporunun fəaliyyətində yeni səhifənin açıldığını göstərdi. Bu səhifənin başlıqları artıq yazılıb - milli birliyimiz, informasiya cəbhəsində mübarizə, mədəniyyətin qorunması, ana dilinin yaşadılması və gələcək nəsillərə ötürülməsi. Bu səhifələri dünya azərbaycanlıları birgə yazacaq, çünki biz artıq bir tarix, bir yaddaş və bir Zəfər ətrafında birləşmiş xalqıq.

**Nurlan ABDALOV,**
**"Respublika".**